


***❒ Goranboyun coğrafi relyefi diqqətçəkəndir: bir tərəfi dağlara söykənib, meşələrlə əhatələnib, o biri yanı arana doğru uzanır, ovuc içi kimi düm-düzdür. Aranlı-yaylaqlı bölgənin bu vəziyyəti, ilk növbədə, əkin-biçinə, təsərrüfat işlərinin gedişinə fərqli təsir göstərir. Biz axırıncı dəfə rayonda olarkən bir daha bu təzadın şahidi olduq. Dağətəyi kəndlərin pambıq əkini sahələrində yığım başa çatıb, torpaq növbəti məhsul üçün şumlanırdı, düzən kəndlərdə isə yığım hələ də davam edirdi.***



# Goranboy: kənd də sevinir, kəndli də

Rayon üzrə qərargahdan ən yüksək məhsuldarlıq əldə edən fermerləri soruşduq. Zahid İsayevin adını çəkdilər. Ona görə də Qızılhacılı kəndinə getməyi qərara aldıq. Fermerlə də elə burada – iş üstündə görüşdük. Artıq son hektarların məhsulu toplanırdı. Qabaqcıl pambıqçı bizi işlərin gedişi, builki göstəricilərlə tanış etdi:

– Bizim kəndin əhalisi uzun illər pambıqçılıqla məşğul olub. Ötən əsrin 70-80-ci illərində bu sahədə xüsusilə böyük uğurlar əldə edilmişdir. Lakin təəssüf ki, sonrakı illər heç bir əsaslı səbəb olmadan bu qiymətli bitki gözdənsalındı, kəndlidə də maraq və həvəs azaldı. Xoşbəxtlikdən, belə vəziyyət uzun sürmədi. Ölkə Prezidenti İlham Əliyevin bu istiqamətdə həyata keçirdiyi ardıcıl tədbirlər, imzaladığı fərman və sərəncamlar, xüsusilə Sabirabad və Saatlı rayonlarında keçirilən müşavirələr pambıqçılığın yenidən dirçəlməsinə meydan açdı. Nəticədə, Goranboyda da son iki ildə pambıq əkinləri xeyli artırıldı, məhsuldarlıq yüksəldi, bu qiymətli xammalın alış qiyməti də qalxdı.

Onu da öyrəndik ki, bu il qabaqcıl fermer 13 hektarda pambıq yetişdirib. Bu mövsümdə 45 ton məhsul əldə edib, məhsuldarlıq isə hər hektardan 32 sentner təşkil edir. Fermerin bu mövsümdə başqa sahələrdə də göstəriciləri yüksəkdir. 10 hektarda taxıl əkmiş, məhsuldarlıq orta ölkə səviyyəsindən yüksək – 45 sentner olmuşdur.



Qarşıdakı ilin hədəfləri ilə maraqlandıq. Zahid bildirdi ki, pambıq əkini sahələrini, ən azı, iki dəfə artırmağı nəzərdə tutmuşuq. Bu, hər şeydən əvvəl, qiymətli strateji məhsulun yetişdirilməsi üçün yaradılan marağın artması ilə bağlıdır.

Hüseyn İbrahimovla isə pambıq qəbulu məntəqəsində görüşdük. Faxralı kənd sakinidir, rayonun qabaqcıl fermerlərindən hesab olunur. Günün nəticələri ilə maraqlandıq. Qabaqcıl təsərrüfatçı həvəslə məlumat verdi:

– Bu il 15 hektarda pambıq əkmişdik. İndiyə kimi sahələrdən 48 ton məhsul yığmışıq. Ancaq biz bunu son hədd hesab etmirik. Hələ tarlada məhsul var. Təsadüfi deyildir ki, hər gün 10-12 ton pambıq təhvil veririk. Elə həmin gün də pulumuzu alırıq. Onu da əlavə edim ki, biz builki nəticələrlə kifayətlənmək istəmirik. Gələcək illər üçün hədəflərimiz böyükdür. Belə qərara gəlmişik ki, 2018-ci ildə pambıq əkiləcək sahələri iki dəfə artıraq.

Qabaqcıl fermer onu da bildirdi ki, başqa sahələrdə də ili yüksək göstəricilərlə başa vururlar. Elə götürək taxılçılığı, onlar zəmilərdən 45 tondan çox məhsul toplamışlar. Məhsuldarlıq isə rayon üzrə ən yüksək səviyyəyə çatmışdır–hər hektardan 45 sentner.



Yolumuz Xanqərvənd kəndinədir. Bilirdik ki, Elman Rüstəmov rayonun ən qabaqcıl fermerlərindən biridir. Düzdür, o digər kənd təsərrüfatı bitkiləri də əkib-becərir. Ancaq son illər əsas diqqəti pambıqçılığa yönəldib. Nəticələr də ürəkaçandır. Belə ki, ötən il burada 14 hektarda məhsul yetişdirilmişdir. Bu il isə əkin sahələri 244 hektara çatdırılmışdır. Söhbət zamanı Elman gələcək planlarından da danışdı:

– Məsələ təkcə əkin sahələrini genişləndirməkdən getmir. Gərək hər hektardan götürülən məhsul da yüksək olsun ki, istədiyin gəliri götürəsən. Hələlik bir hektardan 29,1 sentner məhsul yığmışıq. Gələn il biz bu rəqəmi daha da artırmaq fikrindəyik. Bunun üçün hər cür imkan və şəraitimiz var. Torpağımız münbit, hava əlverişli, su bol. Digər tərəfdən, bizim adamların pambıqçılıqda təcrübəsi yetərlidir.

Goranboy Rayon İcra Hakimiyyətindən verilən arayışdan məlum olur ki, builki pambıq yığımında Nizami Bağırovun, Samir Nuriyevin, Rauf Həmidovun başçılıq etdikləri kollektiv təsərrüfatlar həm ümumi məhsul, həm də məhsuldarlıq baxımından daha yüksək nəticələr əldə etmişlər. Qızılhacılı, Nadirkənd, Yeniyol, Nazirəhmədli, Goranlı, Səfikürd, Borsunlu kəndinin fermerləri isə daha çox məhsul götürmüşlər.

Ümumiyyətlə, cari ildə rayon üzrə 5 min hektarda pambıq əkilmişdir. Bu isə ötənildəkindən 3 min hektar çoxdur. Bir sıra çətinliklərə – səpin vaxtı havaların əlverişsiz keçməsinə, bəzi ərazilərdə suvarma suyunun qıtlığına və s. baxmayaraq sahələrdə bol məhsul yetişdirilmişdir. Yığımın ilk günlərindən yerlərdə işin düzgün təşkili, intizam və tələbkarlığın gücləndirilməsi onunla nəticələndi ki, indiyə kimi tarlalardan 6,9 min ton məhsul götürülmüşdür. Məhsuldarlığın hektardan 15 sentnerə çatması gözlənilir, bu isə ötən illə müqayisədə xeyli çoxdur.

Onu da öyrəndik ki, rayonda pambıq istehsalı tədarükü və emalı ilə “MKT IK”, “Aqropambıq” və Goran müəssisələri məşğul olur. Onlardan biri – “MKT IK” MMC-nin Goranboy filialının direktoru Vaqif Məmmədov bizimlə söhbətində dedi:

– Cari ildə 1620 hektarda pambıq yetişdirmişik. Bu isə ötən ildəkindən 2 dəfə çoxdur. Rayon üzrə 276 nəfər fermerlə müqavilə bağlamışıq. Həmin müqavilələrə əsasən, bütün aqrotexniki tədbirlər vaxtında və keyfiyyətlə aparılmışdır. Mütəxəssislərimiz mövsüm boyu hər gün yerlərdə, kənd adamlarının, fermerlərin yanında olurdular. Maşın-mexanizm, gübrə, yanacaq və başqa məsələlərdə də çətinliyimiz olmadı. Bir sözlə, mütəxəssislərlə, fermerlərlə apardığımız gündəlik iş müsbət nəticəsini verdi. Bugünə kimi bizim zavoda 3,1 min tondan çox pambıq təhvil verilmişdir. Məhsuldarlıq da nəzərdə tutulduğundan yüksəkdir, hələlik hər hektardan 19,1 sentner pambıq yığılmışdır.



Rayonda kənd təsərrüfatının digər sahələrində də yüksək nəticə əldə edilmişdir. Məsələn, bu il 5 ton barama istehsal olunmuşdur. Gələn il isə bu rəqəmin 10 tona çatdırılması nəzərdə tutulmuşdur. Ən əsası odur ki, barama saxlayan şəxslər qısa müddətdə yaxşı gəlir əldə etməyin mümkünlüyünə inandılar. Artıq bu sahəyə maraq artmış, gələn mövsümdə barama saxlamaq üçün 500-dən çox vətəndaş müraciət etmişdir. Sahənin yem bazasının yaxşılaşdırılması üçün 27 min ting əkilmişdir.



Taxılçılıq rayon iqtisadiyyatının əsas sahələrindən biridir, son illərdə isə sürətlə inkişaf edir. Məsələn, cari ildə fermerlər 18331 hektarda məhsul yetişdirmişlər. Zəmilərdən 52 min 59 ton taxıl götürülmüşdür. Məhsuldarlıq da yüksək olmuşdur: hər hektardan 28,4 sentner.

Gəlirli sahələrdən biri də tütünçülükdür. Rayonun dağətəyi kəndlərində 6 hektarda tütün əkilmiş, 9 ton məhsul götürülmüşdür. Son iki ildə rayonda 5 hektarda fındıq əkilmişdir. Növbəti ildə yeni bağların salınması üçün əlverişli ərazilərdə torpaq sahələri müəyyənləşdirilmişdir.

Rayonda kifayət qədər meyvə istehsal olunur. Emal müəssisəsi olmadığından bu məhsulların xeyli hissəsi itkiyə gedir. Artıq rayonda nar emalı sexinin tikintisinə başlanılmışdır. Belə müəssisələrin açılması məhsul istehsalının artırılmasına güclü təkan verəcəkdir.

Biz yalnız son illər Goranboy rayonunun kənd təsərrüfatı sahəsində əldə etdiyi uğurlardan, dinamik inkişafdan danışırıq. Yeri gəlmişkən, onu da əlavə edək ki, sənaye məhsulları istehsalı da artmış, tikinti-quruculuq və abadlıq işləri ardıcıl və sistemli xarakter daşımış, bütün sahələri əhatə etmişdir. Təkcə belə bir faktı xatırlamaq kifayətdir ki, Goranboy şəhəri öz simasını tanınmaz dərəcədə dəyişmiş, onlarla müxtəlif təyinatlı bina tikilmişdir. Yeni yollar, səkilər çəkilmiş, parklar, xiyabanlar salınmış, yaşıllıq zolaqları yaradılmışdır. Yaşayış məntəqələrinin içməli su, elektrik enerjisi və təbii qazla təminatı əsaslı şəkildə yaxşılaşmış, insan amili, onun vacib sosial ehtiyaclarının vaxtında və keyfiyyətlə yerinə yetirilməsi diqqət mərkəzində saxlanılmışdır.

Goranboyda qışın ilk günlərində olduq. Murovdan soyuq küləklər əsirdi. Dağların zirvəsi ağ örpəyə bürünmüşdü. Pambıq tarlalarında artıq məhsul yığımı sona çatmaqdaydı. Taxıl sahələrinə qulluq edilir, bağ-bağçalarda, həyət-bacalarda təmizlik işləri aparılırdı. İnsanlar Yeni ili ürək dolusu sevinc və məmnunluqla qarşılamağa hazırlaşırlar. Bir sözlə, rayonun hər yerində kəndin də kəndlinin də sevindiyinə şahid olduq. Ona görə ki, hər kəsin təknəsində çörəyi, anbarında taxılı, digər zəruri ehtiyatı, xərcləməyə pulu var.

Goranboyda daha bir təsərrüfat ili yekunlaşır, 2018-ci il bolluq, bərəkətlə, yeni sevinc və ümidlərlə gəlir...



***Ziyəddin SULTANOV,***
***“Xalq qəzeti”nin bölgə müxbiri***